# Mənəvi dəyərlərimizin ən qiymətli xəzinəsi



**Əlifba hər bir xalqın milli mənəvi sərvətidir. Mükəmməl əlifba əsasında aparılan yazı sistemi xalqın maddi-mədəni nailiyyətlərinin yaranmasında, yaşamasında və inkişafında mühüm rol oynayır.**

Ümummilli lider Heydər Əliyev ölkəmizdə latın qrafikalı Azərbaycan əlifbasına keçidin bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətinin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq 2001-ci il 9 avqust tarixli Fərman imzalayıb. Həmin Fərmana əsasən hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Əlamətdar gün ərəfəsində Yeni Azərbaycan Partiyası Masallı Rayon Təşkilatı Heydər Əliyev Mərkəzində "Azərbaycan dili və əlifbası milli-mənəvi dəyərlərimizin ən qiymətli xəzinəsidir" mövzusunda tədbir keçirib.

Tədbir iştirakçıları əvvəl ulu öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş igid oğulların əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Yeni Azərbaycan Partiyası Masallı Rayon Təşkilatının fəalı Eldar Kazımov ümummilli liderin Azərbaycan dilinin dövlət dili səviyyəsinə yüksəldilməsindəki tarixi xidmətlərindən, milli-mənəvi dəyərlərin qorunmasına və dilimizin inkişafına göstərdiyi qayğıdan ətraflı söhbət açıb.

Digər çıxışlarda qeyd olunub ki, ana dilimizin hərtərəfli inkişafı, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində eşidilməsi qürurverici hadisədir. Çünki dil təkcə ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi, ədəbiyyatı, mədəniyyətidir. Dilimizin saflığını qorumaq, onu dərindən öyrənmək və inkişaf etdirmək hər birimizin vətəndaşlıq borcudur. Hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, öz ana dilini, dinini, milli adət və ənənələrini unutmamalı, daim qoruyub təbliğ etməlidir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 31 iyul.- S. 5.